Xocavənd



**Yaranma tarixi – 26.11.1991**
**Ərazisi –1458 kм²**
**Əhalinin sayı – 43779 nəfər**
**O cümlədən:**
**Azərbaycanlı əhalisi 12537 nəfər**
***(01yanvar 2019-cu il tarixə)***
**Əhalinin sıxlığı -1 kv.km 30 nəfər**
***(01 yanvar 2019-cu il tarixə)***

**2018-ci ilin yanvar-dekabr aylarında**
**Xocavənd Rayonunda sosial iqtisadi inkişafa dair təhlil**

**M Ə R U Z Ə S İ**

**Ümumi məhsul buraxılışı-** 2018-ci ilin yanvar-dekabr aylarında rayon iqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 11817,1 min manat təşkil etmişdir. Məhsul xidmətlərinin 95,6 faizi istehsal sahələrinin, 4,4 faizi isə xidmət sahələrinin payına düşmüşdür. 2019-cu ilin 01 yanvar vəziyyətinə kənd təsərrüfatı sahəsində 11303,3 min manatlıq və ya ümumi məhsulun 95,7 faizi, sənayedə 225,0 min manatlıq və ya ümumi məhsulun 1,9 faizi, nəqliyyat və anbar təsərrüfatında 288,8 min manat və ya ümumi məhsulun 2,4 faiz təşkil etməklə məhsul istehsal olunmuşdur. İqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmində keçən ilin müvafiq dövrünə nisbətən 35,5% artım müşahidə olunmuşdur.

İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.

**Ümumi mehsul buraxilişi**
**(min manatla)**




**Sənaye müəssisələri üzrə-** Rayonun sənaye müəssisələri tərəfindən yanvar-dekabr ayları ərzində istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 225,0 min manat olmuşdur. 2019-cu ilin 01 yanvar vəziyyətinə sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı 67 nəfər təşkil etmiş, işləyənlərin orta aylıq nominal əmək haqqı 210,3 manat olmuşdur.

Sənayenin məhsul buraxılışı diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.

**Sənaye xarakterli iş və xidmətləri**
**(min manatla)**




**Nəqliyyat və anbar təsərrüfatları üzrə-** 2018-ci ilin yanvar-dekabr aylarında rayonda nəqliyyat və anbar təsərrüfat müəssisələri tərəfindən göstərilmiş və istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 288,8 min manat olmuşdur. Muzdla işləyənlərin orta siyahı sayı 27 nəfər, onların orta aylıq nominal əmək haqqı isə 188,9 manat təşkil etmişdir.

**Nəqliyyat və anbar xarakterli iş və xidmətləri**
**(min manatla)**




**Kənd təsərrüfatı üzrə-** Kənd təsərrüfatında məhsul buraxılışı 11303,3 min manat təşkil etmişdir. O cümlədən; 6615,4 min manat bitkiçilikdə, 4687,9 min manat heyvandarlıqda olmaqla diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.

**Kənd təsərrüfatı xarakterli**
**iş və xidmətləri min manatla**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Kollegiyasının 2017-cı il 25 oktyabr tarixli, 9/2 nömrəli qərarı ilə təsdiq edilmiş “2018-ci ildə yerli statistika orqanları üçün statistik işlər proqramı”na uyğun olaraq Xocavənd rayonunda 2018-ci il iyun ayının 1-i vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə cari ilin məhsulu üçün kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin qəti uçotu keçirilmişdir.

Keçən ilin payızında suvarılan və suvarılmayan sahələrdə dən və yaşıl yem üçün əkin işləri aparılmışdır. Rayonda 8691,4 hektar sahədə əkin işləri aparılmışdır. Əkin sahələri keçən ilə nisbətən 2446,2 hektar və ya 39,2% artmışdır.

2018-ci il 01 iyun vəziyyətinə rayon ərazisində aparılmış əkin sahəsini 7881,8 hektar buğda, 220 hektar arpa, 27 hektar kartof, 121 hektar tərəvəz, 30,7 hektar ərzaq üçün bostan bitkiləri, 410,9 hektar cari və keçmiş illərdə əkilmiş çoxillik otlar olan yonca sahəsi təşkil edir.

Keçən illə müqayisədə əkin sahələrinin strukturu aşağıdakı kimi olmuşdur.

| | | **2017** | **2018** | **Fərq** | |
|---|---|---|---|---|---|
| | | | | + - | % |
| 1 | **Cəmi əkin** | **6245,2** | **8691,4** | **+2446,8** | **139,2** |
| | O cümlədən payızlıq dənlilər | 5627 | 8101,8 | +2474,8 | 144,0 |
| | Ondan Buğda | 5500 | 7881,8 | +2381,8 | 143,3 |
| | Arpa | 127 | 220 | +93 | 173,2 |
| 2 | **Yazlıq dənlilərin cəmi** | **30** | **0** | **-30** | **0,0** |
| | Qarğıdalı | 30 | 0 | -30 | 0,0 |
| 4 | **Kartof tərəvəz və bostan bitkilərinin cəmi** | **194,2** | **178,7** | **-15,5** | **92,0** |
| | Kartof | 26 | 27 | +1 | 103,8 |
| | Tərəvəz | 139 | 121 | -18 | 87,0 |
| | Bostan bitkiləri | 29,2 | 30,7 | +1,5 | 105,1 |
| 5 | **Çox illik otların cəmi** | **394** | **410,9** | **+16,9** | **104,3** |
| | Cari ilin çoxillik otları | 4,4 | 16,9 | +12,5 | 384,1 |
| | Keçmiş illərin çoxillik otları | 389,6 | 394 | +4,4 | 101,1 |

Əkin sahələrinin strukturu ümumi əkin sahəsinə nisbətən faizlə aşağıdakı diaqrammada öz əksini tapmışdır

| **Kənd təsərrüfatı bitkilərinin adı** | **Əkin sahəsi, hektar** | **Təmizlənmədən sonrakı çəkidə məhsul, ton** | **Məhsuldarlıq, sentner/hektar** |
|---|---|---|---|
| **Keçən ilin payızında dən və yaşıl yem üçün payızlıqlar əkilib** | **8102** | | |
| Yazlıq əkinlərin səpininin axırına payızlıqların salamat qalmış sahələri dən üçün | 8102 | 16909.0 | 20.9 |
| Payızlıq buğda | 7882 | 16403.0 | 20.8 |
| Payızlıq arpa | 220 | 506.0 | 23.0 |
| Payızlıq və yazlıq buğda | 7882 | 16403.0 | 20.8 |
| Payızlıq və yazlıq arpa | 220 | 506.0 | 23.0 |
| Dənli və dənli paxlalıların cəmi | 8102 | 16909.0 | 20.9 |
| Bərk buğda | 7882 | 16403.0 | 20.8 |

.




2018-ci ilin məhsulu üçün əkin sahələrinin 90,7% buğda, 2,5% arpa, 0.3% kartof, 1,4% tərəvəz, 0.3%-i bostan bitkiləri, 4,8%-i çoxillik otlar olan yonca təşkil etmişdir.
Kənd təsərrüfatı bitkiləri məhsullarının toplanışı aşağıdakı kimi olmuşdur.

| | | | |
|---|---|---|---|
| **Kartof cəmi** | **27** | **234.9** | **87.0** |
| **Açıq torpaqlarda bütün növ tərəvəz (toxumluq üçün birillik və ikiillik bitkilərdən başqa) – cəmi** | **121** | **1159.2** | **95.8** |
| Xiyar | 12 | 122.5 | 98.0 |
| Pomidor | 14 | 129.3 | 93.0 |
| Baş soğan | 82 | 806.5 | 98.0 |
| Sair tərəvəz bitkiləri-cəmi | 12 | 100.8 | 82.0 |
| ondan: Qabaq | 2 | 21.1 | 87.9 |
| Badımcan | 3 | 19.5 | 75.0 |
| Şirin bibər | 2 | 17.0 | 73.9 |
| Acı bibər | 3 | 22.2 | 74.0 |
| Turp | 2 | 21.0 | 105.0 |
| Bostan bitkiləri-cəmi | 31 | 322.4 | 105.0 |
| o cümlədən,Qarpız | 18 | 201.7 | 109.0 |
| Yemiş | 12 | 120.8 | 99.0 |
| Keçən ilin payızlıq əkinini də daxil etməklə cari ilin örtüksüz çoxillik otları - cəmi | 17 | | |
| o cümlədən istifadə olunub; a) quru ot üçün | - | 71.0 | 42.0 |
| Keçən illərdə əkilmiş çoxillik otlar – cəmi | 394 | | |
| o cümlədən istifadə olunub; a) quru ot üçün | - | 1773.0 | 45.0 |
| Cəmi yemlik bitkilər | 411 | | |
| 2018-ci ilin məhsulu üçün əkin sahələrinin cəmi | 8691 | | |

| Kənd təsərrüfatı bitkilərinin adı | İl ərzində yeni salınmış bağlar, hektar | Əkmələr, hektar | | Məhsul yığımı, ton | Məhsuldarlıq sentner/hektar |
|---|---|---|---|---|---|
| | | cəmi | ondan meyvə verən yaşda | ondan meyvə verən yaşda | |
| Alma | 0.2 | 7.5 | 6.8 | 52.1 | 76.6 |
| Armud | 0.1 | 5.0 | 4.6 | 37.7 | 82.0 |
| Heyva | 0.1 | 3.5 | 3.4 | 27.0 | 79.4 |
| Şaftalı | 0.1 | 3.0 | 2.8 | 19.2 | 68.6 |
| Ərik | 0.3 | 9.3 | 7.8 | 68.5 | 87.8 |
| Gilas | 0.2 | 4.3 | 3.9 | 29.4 | 75.4 |
| Albalı (gilənar) | 0.2 | 5.2 | 5.0 | 34.1 | 68.2 |
| Gavalı | 0.1 | 3.6 | 3.5 | 33.2 | 94.9 |
| Alça | 0.1 | 3.1 | 3.0 | 26.8 | 89.3 |
| Qoz | 0.1 | 1.6 | 1.4 | 3.4 | 24.3 |
| Fındıq | 0.1 | 4.3 | 4.1 | 11.6 | 28.3 |
| Nar | 0.4 | 7.6 | 7.0 | 69.3 | 99.0 |
| Xurma | 0.2 | 3.0 | 2.8 | 34.0 | 121.6 |
| Əncir | | 3.9 | 3.6 | 38.1 | 105.8 |
| Zoğal | | 1.2 | 1.2 | 7.8 | 65.0 |
| Əzgil | | 1.5 | 1.0 | 6.4 | 64.0 |
| Sair meyvə | 0.2 | | | | |
| Giləmeyvəlilər-cəmi | 0.2 | 1.2 | 1.0 | 30.0 | 300.0 |
| **Bağlar və giləmeyvəliklərin cəmi** | **2.6** | **68.8** | **62.9** | **528.6** | **84.0** |
| Tut (meyvə üçün), ədədlə | 20.0 | 130.0 | 80.0 | 30.0 | - |
| Çəkil əkmələri (yarpaq üçün) | 12 | 8.0 | | - | - |

Taxılın məhsuldarlığı 20,9 sentner, o cümlədən buğda 20,8 sentner, arpa isə 23,0 sentnerden, kartof 87,0 sentner, tərəvəzin məhsuldarlığı isə 95,8 sentner, yem bitkiləri 48 sentnerdən və 528,6 ton meyvə əldə edilmişdir. Görülən işlərlə yanaşı rayonda əhali tərəfindən 26 qutu (494 qram) ipəkqurdu toxumu bəslənilmişdir. Tədarük edilən 1 ton 47 kiloqram barama "Azəripək" MMC-yə təhvil verilmişdir.
Keçən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı heyvandarlıq məhsullarının istehsalı aşağıdakı kimi olmuşdur.

| Göstəriçilər | 2018-ci il | 2017-ci il | + - | 2018-ci ilin 2017-ci ilə nisbəti, %-lə |
|---|---|---|---|---|
| Ət (diri çəkidə, sentner) cəmi | 7783 | 5504 | +2279 | 141.4 |
| o cümlədən: | | | | |
| inək əti | 3268 | 2520 | +748 | 129.7 |
| qoyun əti | 3334 | 2214 | +1020 | 150.6 |
| quş əti | 1181 | 770 | +411 | 153.4 |
| Süd (fiziki çəkidə, sentner) cəmi | 25102 | 22978 | +2124 | 109.2 |
| o cümlədən: | | | | |
| inək südü | 23838 | 21723 | +2115 | 109.7 |
| qoyun südü | 1264 | 1255 | +9 | 100.7 |
| Yumurta (min ədəd) | 438 | 432 | +6 | 101.4 |
| Yun (fiziki çəkidə, sentner) | 151 | 310 | -159 | 48.7 |

Hal-hazırda rayonda mövcud mal-qaranın sayı 2126 baş, qoyun və keçinin sayı 20228 baş, bütün növdən olan quşların sayı 26499 baş təşkil edir. Son illərdə mal-qaranın baş sayının artım və azalma dinamikası aşağıdakı kimi olmuşdur.

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İri buynuzlu mal-qara | 2158 | 1808 | 1870 | 1946 | 2163 | 2014 | 1966 | 2035 | 2159 | 2363 | 2126 |
| İnək və camış | 961 | 797 | 869 | 881 | 937 | 1010 | 1042 | 1073 | 1117 | 1194 | 1022 |
| Qoyun və keçi | 24364 | 19639 | 18813 | 12519 | 14525 | 14072 | 14015 | 15200 | 16004 | 21396 | 20228 |

**İri buynuzlu mal qara**




**Qoyun və keçilər**




**Demoqrafik göstəricilər üzrə-** 2019-cu il 01 yanvar vəziyyətinə rayon əhalisinin sayı 43,8 min nəfərə çatmışdır ki, onlardan da 12,5 min nəfərini milliyətcə azərbaycanlı olan məcburi köçkün əhali təşkil edir. Əhalinin ümumi artımı 184 nəfər olmuşdur. Bunlardan da 89 nəfəri təbii artım, 95 nəfəri miqrasiyanın payına düşür. Doğulanlar 156 nəfər, ölənlər 77 nəfər, gələnlər 185 nəfər, gedənlər 90 nəfər, nikah 15 , boşanma 4 olmuşdur.
Əvvəlki illərin müvafiq dövrləri ilə müqayisəli olaraq demoqrafik göstəriciləri aşağıdakı kimidir.

### Əhalinin dinamikası (min nəfərlə)




**İnzibati xətalar üzrə-** 2018-ci ildə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan əlaqədar orqanlar tərəfindən 221 inzibati xəta aşkar edilmişdir ki, bu da 2017-cı ilə nisbətən 33,6 faiz az olmuşdur. Barəsində inzibati xətalar haqqında işlər üzrə qərar çıxarılmış şəxslərin sayı 221 nəfər təşkil etmişdir. Onlardan Avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin yoxlanılmasının və sürücülərin tibbi müayinəsinin təşkil edilməməsinə görə 3 nəfər, xırda xuliqanlığa görə 5 nəfər, məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsinə görə 2 nəfər, inzibati cərimə və ictimai işlər növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın icra edilməməsinə görə 17 nəfər, döyməyə görə 3 nəfər, müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusların müəyyən edilmiş hərəkət cədvəlinə və hərəkət sxeminə riayət olunmamasına görə 3 nəfər, svetoforun və ya nizamlayıcının qadağanedici işarəsi verilərkən hərəkətin davam etdirilməsinə, “Giriş qadağandır” yol nişanının tələblərinin və ya sərnişin daşıma, əks istiqamətli hərəkət zolağına çıxmaqla ötmə və ya manevr etmə, yolayrıcını keçmə qaydalarının pozulmasına, ümumi istifadədə olan nəqliyyat vasitələrinin, yaxud adamlar daşınan yük avtomobillərinin sərnişinlərlə yanacaqdoldurma məntəqəsinə daxil olmasına, üfüqi nişanlanma xətlərinin tələblərinə riayət etməyərək sola və ya geriyə dönməyə, yaxud maneəni kənardan keçməyə görə 44 nəfər, təhlükəsizlik kəmərlərindən, motodəbilqələrdən, işıq cihazlarından və səs siqnallarından istifadə qaydalarının pozulmasında 49 nəfər, nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsinə görə 21 nəfər, nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə 5 nəfər, nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən nəqliyyat vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə 1 nəfər, nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini idarə etmək üçün idarəetmə hüququ olmayan şəxsə verilməsinə görə 4 nəfər, nəqliyyat vasitələrinin sahibləri və ya sürücüləri tərəfindən yol hərəkəti haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəqliyyat vasitəsini dövlət qeydiyyatından keçirmədən idarə etməyə və ya dövlət qeydiyyatından keçirilmiş nəqliyyat vasitəsi icarə və ya digər əşya hüquqlarına dair müqavilə (notarius tərəfindən təsdiq edilən müqavilələr istisna olmaqla) əsasında başqa şəxsə verildikdə onu təkrar dövlət qeydiyyatından keçirməməyə, yaxud nəqliyyat vasitəsinin geri qaytarılması barədə öhdəçiliyə əməl etməməyə və ya nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsinin rəsmiləşdirilməsi və ya girov qoyulması qaydalarını pozmağa görə 3 nəfər, nəqliyyat vasitəsini qapıları bağlanmamış vəziyyətdə yerindən tərpətməyə və ya onun hərəkəti zamanı qapıları açmağa görə 37 nəfər, dayanma və ya durma qaydalarının pozulmasına görə 2 nəfər, xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşüyət edilməyən hərəkətlərə görə 2 nəfər, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın qanuni qüvvəyə mindiyi gündən 3 ay

müddətində qanunla müəyyən edilmiş əsaslar olmadan icra edilməməsinə görə 20 nəfər olmaqla inzibati xəta qeydə alınmışdır.

Hesabat dövründə barəsində inzibati tənbeh tətbiq edilmiş 221 nəfərdən xəbərdarlıq edilənlər 5 nəfər, cərimə olunanlar 196 nəfər, ictimai işlər növündə inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 12 nəfər olmuşdur. Cərimə edilən 196 nəfərdən ümumilikdə 15715,0 manat məbləğində cərimə ödənilmişdir.

**Təhsil üzrə-** Ümumtəhsil məktəblərdə 2018/2019 tədris ilində rayonda 16 dövlət gündüz ümumtəhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan da 3 ibtidai, 2 ümumi orta, 11 tam orta məktəb olmuşdur. Ümumtəhsil məktəblərində 2026 nəfər şagird təhsil alır ki, onların da 24 nəfəri (1,2%) ibtidai məktəblərin, 42 nəfəri (2,1%) ümumi orta məktəblərin, 1960 nəfər (96,7%) şagird tam orta məktəblərin payına düşür. İkinci növbədə 3 müəssisə olmaqla təhsil alan şagirdlərin sayı 171 (8,4%), şagirdlərin ümumi sayından evdə fərdi təhsil alanların sayı 10 nəfər olmuşdur. Təhsil alan şagirdlərin 894 nəfərini və ya 44,1%-i qızlar təşkil edir. Şagirdlərin buraxdığı dərs günlərin sayı 436, o cümlədən xəstəliyə görə 126, digər səbəblərə görə isə 310 dərs günləri qeydə alınmışdır.

| | *2016/2017* | | | | *2017/2018* | | |
|---|---|---|---|---|---|---|---|
| | | *onlardan* | | | | *onlardan* | |
| | *Cəmi* | *Şəhər* | *Kənd* | | *Cəmi* | *Şəhər* | *Kənd* |
| Məktəblərin sayı – cəmi | 17 | -- | 17 | | 16 | -- | 16 |
| ibtidai | 4 | -- | 4 | | 3 | -- | 3 |
| əsas | 2 | -- | 2 | | 2 | -- | 2 |
| orta | 11 | -- | 11 | | 11 | -- | 11 |
| Şagirdlərin sayı – cəmi, nəfər | 2052 | -- | 2052 | | 2026 | -- | 2026 |
| *o cümlədən:* | | | | | | | |
| ibtidai məktəblərdə | 36 | -- | 36 | | 24 | -- | 24 |
| ümumi orta məktəblərdə | 43 | -- | 43 | | 42 | -- | 42 |
| tam orta məktəblərdə | 1973 | -- | 1973 | | 1960 | -- | 1960 |
| Iki növbəli müəssisələrin sayı | 2 | -- | 2 | | 3 | -- | 3 |
| Ikinci növbədə oxuyan şagirdlərin sayı | 269 | -- | 269 | | 171 | -- | 171 |

Ümumtəhsil müəssisələrində İnformasiya və kommunikasiya texnologiyalarından və onlardan istifadə edilməsi haqqında məlumat aşağıdakı kimi olmuşdur.

| | Cəmi | Ibtidai Məktələrdə | Ümumi orta məktəblərdə | Tam orta məktəblərdə |
|---|---|---|---|---|
| Kompüterləri olan məktəblərin sayı: | 14 | 1 | 2 | 11 |
| Cəmi | 14 | 1 | 2 | 11 |
| Onlardan İnternetə çıxışı olanlar | 6 | - | - | 6 |
| Kompüterlərin sayı | 68 | 1 | 1 | 66 |
| İnternetə qoşulan kompüterlərin sayı | 27 | - | - | 27 |
| Müəssisələrdə internetdən istifadə etmiş şagirdlərin ümumi sayı | 379 | - | - | 379 |
| Lokal şəbəkənin mövcudluğu | 2 | - | - | 2 |
| Elektron poçtun mövcudluğu | 6 | - | 1 | 5 |
| Kompüter siniflərinin sayı | 6 | - | - | 6 |

Rayonun ümumtəhsil məktəblərində 439 nəfər çalışır və onların da 350 nəfərini və ya 79,7%-ni qadınlar təşkil edir. Müəllimlərin sayı (məktəb rəhbərlərindən başqa) 233 nəfər, onların da 207 nəfəri və ya 88,8%-i qadınlardır. Rayonun ümumtəhsil məktəblərində çalışan işçilərin orta aylıq əmək haqqı 324,3 manat təşkil etmişdir.

**Mədəniyyət və Turizm üzrə-** Rayon əhalisinə 15 klub və mədəniyyət evləri, 6 kitabxana xidmət göstərir. Mədəniyyət və Turizim şöbəsi işçilərinin sayı 152 nəfər olmaqla orta aylıq əmək haqqı 207,3 manat təşkil etmişdir.

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| Mədəniyyət (ilin sonuna) Kütləvi kitabxanaların sayı, | 20 | 19 | 13 | 6 | 6 | 6 | 6 |
| Onlardan kitab fondu ,min nüsxə ilə | 39.9 | 40,2 | 41,3 | 42.0 | 42.5 | 43,1 | 43,1 |
| Əhalinin hər 1000 nəfərinə | 945 | 948 | 949 | 979 | 985 | 993 | 993 |
| Klub müəssisələrinin sayı | 20 | 20 | 20 | 15 | 15 | 15 | 15 |

**Səhiyyənin göstəriciləri üzrə-** Rayon Mərkəzi xəstəxanasında ümumilikdə 285 nəfər fəaliyyət göstərir. Xəstəxanada 22 həkim, Xəstələrə xidmət edən kiçik tibb bacıları 159 nəfər, orta tibb heyəti 96 nəfər, təcili yardım avtomobillərinin sürücüləri 8 nəfər olmaqla işçi heyəti çalışır. Səhiyyə İşçilərinin 239 nəfəri (83,8%) qadınlardır.
Onların orta aylıq əmək haqqı 209,4 manat təşkil etmişdir.

| | 2004 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün ixtisaslardan olan həkimlərin sayı, nəfər | 24 | 31 | 33 | 34 | 31 | 31 | 30 | 29 | 25 | 22 |
| Orta tibb işçilərinin sayı, nəfər | 170 | 104 | 116 | 106 | 103 | 103 | 104 | 100 | 100 | 159 |
| Xəstəxana müəssisələrinin sayı | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 |
| Xəstəxana çarpayılarının sayı | 20 | 180 | 180 | 180 | 180 | 180 | 180 | 180 | 180 | 180 |
| Əhaliyə ambulatoriya - poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 7 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 |

**Pensiya təminatı üzrə-** Rayonda 1099 nəfər pensiyaçı qeydiyyatda olmuş və onlara təyin edilmiş aylıq pensiyaların orta məbləği 199,2 manat təşkil etmişdir. Pensiyaçıların sayından 102 nəfər işləyənlərdir.

| | Cəmi | Onlardan işləyənlər |
|---|---|---|
| Cəmi pensiyaçılar - nəfər | 1099 | 102 |
| O cümlədən | | |
| yaşa görə | 546 | 44 |
| əlilliyə görə | 521 | 58 |
| Ailə başçısını itirməyə görə | 32 | - |
| Pensiyaların orta məbləği - manat | | 199,2 |

| | |
|---|---|
| Əhaliyə dövlət tərəfindən verilən ayrı ayrı müavinətlər | 9 |
| Uşağın anadan olmasına görə birdəfəlik müavinət | 3 |
| 3 yaşına çatmayan uşaqlara qulluqla əlaqədarmüavinət | 25 |
| Dəfin üçün müavinət | 7 |
| Müvinətin orta məbləği | 373,63 |

2019-cu ilin 01 yanvar vəziyyətinə rayonda aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı alan ailələr olmamışdır.

Sosial müavinət təyin edilmiş şəxslərin sayı haqqında məlumat aşağıdakı kimi olmuşdur.

| 01.01. 2019-cu il tarixə təyin olunmuş sosial müavinətlər | Sosial müavinat alanlar (nəfərlə) | Bir nəfərə düşən aylıq məbləğ (manatla) |
|---|---|---|
| Cəmi | **547** | **60,8** |
| O cümlədən | | |
| Yaşa görə | 18 | 73,0 |
| Əlilliyə görə | 128 | 61,11 |
| Sağlamlım imkanları məhdud 18 yaşadək uşaqlara | 77 | 82,0 |
| Ailə başçısını itirilməsinə görə müavinət alanlar | 22 | 68,0 |
| Kommunal nəqliyyat və digər xidmətlərə görə | 297 | 53,98 |
| 1 yaşadək uşağı olan ailələrə | 4 | 55 |
| Yetim və valideyin himayəsindən məhrum olmuş uşaqların qəyyumları | 1 | 61,0 |
| **Birdəfəlik müavinət təyin olunanların sayı** | **57** | **114,33** |
| O cümlədən | | |
| Uşağın doğulmasına görə müavinət alan ailələrin sayı | 51 | 109,0 |
| Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkərək əlil olmuş şəxslər | 2 | 215,0 |
| Dəfn üçün müavinət | 4 | 132,0 |
| Qarabağ əlillərinə | 17 | 160,82 |
| Hərbi xidmət zamanı əlil oanlar | 1 | 158,0 |
| Şəhid ailələrinə | 57 | 242,0 |

**İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə olan məlumata əsasən** 2019-cu il yanvar ayının 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1366 nəfər olmuş, onlardan 1328 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 38 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 40,4%-i təhsil, 4,9%-i sənaye, 20,9%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 15,9%-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 1,3%-i nəqliyyat və anbar təsərrüfatı, 1,5%-i peşə, elmi və texniki fəaliyyət, 11,2 istirahət, əyləncə və incəsənət sahəsində, 3,2%-i kənd təsərrüfatı, 0,7%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2018-ci ildə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 291,3 manat olmuşdur.

**Məşğulluq və işsizlik üzrə-** İqtisadi fəal əhali-17442 nəfər olmaqla, məşğul əhali 16726 nəfər, işsiz əhali 716 nəfər, iqtisadi qeyri fəal əhali 7685 nəfər təşkil edir. Əhalinin iqtisadi fəallığının səviyyəsi 69,4%, məşğulluğun səviyyəsi 95,9%, işsizliyin səviyyəsi isə 4,1% olmuşdur. İqtisadi fəal əhalinin 46,9%-ni kişilər, 53,1%-ni isə qadınlar təşkil edir. 15 yaş və yuxarı yaşda olan İqtisadi fəal o cümlədən məşğul, işsiz əhali, iqtisadi və qeyri- fəal əhali haqqında məlumatlar aşağıdakı cədvəldəki kimi səciyyələndirilmişdir.

| Cinsi | İqtisadi fəal əhali | o cümlədən | | İqtisadi qeyri-fəal əhali | Əhalinin iqtisadi fəallığının səviyyəsi, %-lə | Məşğul-luğun səviyyəsi, %-lə | İşsizliyin səviyyəsi, %-lə |
|---|---|---|---|---|---|---|---|
| | | məşğul əhali | işsiz əhali | | | | |
| Cəmi | 17442 | 16726 | 716 | 7685 | 69.4 | 95.9 | 4.1 |
| kişilər | 8176 | 7859 | 317 | 3623 | 69.3 | 96.1 | 3.9 |
| qadınlar | 9266 | 8867 | 399 | 4062 | 69.5 | 95.7 | 4.3 |
| Kənd yerləri | 17442 | 16726 | 716 | 7685 | 69.4 | 95.9 | 4.1 |
| kişilər | 8176 | 7859 | 317 | 3623 | 69.3 | 96.1 | 3.9 |
| qadınlar | 9266 | 8867 | 399 | 4062 | 69.5 | 95.7 | 4.3 |

**Yeni iş yerləri-** Cari ilin 01 yanvar vəziyyətinə rayonda 64 yeni iş yeri açılmışdır. Onlardan yeni yaradılmış müəssisə və təşkilatlarda 3 nəfər, mövcud müəssisə və təşkilatlarda 1 nəfər 60 nəfər isə isə fiziki şəxslərdə olmuşdur.

Xocavənd Rayonu üzrə 2018-ci ilin əvvəlindən yeni açılmış iş yerləri haqqında məlumatlar aşağıda göstərilən cədvəldəki kimi olmuşdur.

| Göstəricilərin adı | Sətrin №-si | İlin əvvəlindən(vahid) |
|---|---|---|
| Yeni açılmış iş yerlərinin sayı | 01 | 64 |
| Daimi iş yerləri | * | 64 |
| Yeni yaradılmış müəssisə və təşkilatlarda | 02 | 3 |
| Mövcud müəssisə və təşkilatlarda | 03 | 1 |
| Fiziki şəxslərdə | 05 | 60 |

Xocavənd Rayon büdcəsinin gəlirləri 2018-ci ilin yanvar-dekabr aylarında 620,6 min manat təşkil edilmişdir. Büdcənin gəlirləri keçən ilin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.

**Rayon büdcəsinin gəlirləri, min manat**




**Xocavənd Rayon Statistika İdarəsinin rəisi** **Fərnad Tahirov**

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**XOCAVƏND RAYON STATİSTİKA İDARƏSİ**

**2018-ci ilin yanvar-dekabr aylarında**
**Xocavənd Rayonunda sosial-iqtisadi inkişafa dair təhlil**

# *M Ə R U Z Ə S İ*

**XOCAVƏND - 2018**

# M Ü N D Ə R İ C A T


Ümumi məhsul buraxılışı ------1

Sənaye ------------------------ 1

Nəqliyyat və anbar ------------ 2

Kənd təsərrüfatı ---------------- 2-3-4-5-6

Demoqrafiya -------------------- 6-7

İnzibati xəta 7-8

Təhsil ------------------------------ 8

Mədəniyyət və Turizm ---------- 9

Səhiyyə --------------------------- 9

Pensiya təminatı ----------------- 9

Məşğulluq ------------------------- 10-11

Yeni açılmış iş yerləri ---------- 11

Büdcənin gəlirləri --------------- 11